# ORTA MƏKTƏBDƏ KİMYADAN PRAKTİK İŞLƏRİN APARILMASI PROSESİNDƏ ŞAGİRDLƏRDƏ KİMYA BİLİKLƏRİNİN FORMALAŞMASI

**A.C.Quliyev, T.A.Vəliyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Respublikamızın orta ümumtəhsil məktəblərinin 7-11 -ci siniflərinin kimya proqramları və dərsliklərinin təhlili göstərir ki, şagirdlərdə zəruru bacarıq və vərdişlərin formalaşması üçün kimyadan praktik işlərin aparılmasına kifayət qədər məşğələ saatları ayrılmışdır. Şagirdlərin kimyadan öyrəndikləri nəzəriyyə və qanunları kimya eksperimentinin müxtəlif formalarından (nümayiş eksperimenti, laboratoriya təcrübələri, praktik işlər və s.) istifadə olunmaqla təsdiq etmələri üçün geniş imkanlar mövcuddur.

Məktəb kimya kursunda praktik iş, mövzuların öyrənilməsinin sonunda şagirdlərin biliyinin sistemləşdirilməsi və möhkəmləndirilməsi, eksperimental bacarığın formalaşması və inkişaf etdirilməsi məqsədilə aparır. Praktik işlərin iki növü məlumdur: a) təlimatla aparılan; b) eksperimental məsələlər. Praktik işin təlimatı şagirdlərin fəaliyyətinin istiqamətləndirilməsinin əsasıdır. Kimyanın öyrənilməsinin ilkin mərhələlərində (məsələn, 7-ci sinifin kimya kursunun başlanğıcında) işin aparılmasının bütün mərhələləri təlimatda ətraflı təsvir olunur. Şagirdlərdə praktik işin aparılmasına dair eksperimenal bacarıq yarandıqda təlimat sadələşir.

Eksperimental məsələlərin təlimatı olmur, onların yalnız şərti verilir. Şagird məsələnin həlli planını özü qurmalı və onu müstəqil icra etməlidir. Praktik məşğələ şagirdlərlə frontal, qrup və fərdi formada aparıla bilər. Praktik məşğələnin frontal təşkili formasında sinifin bütün şagirdləri eyni işi icra edirlər. Qrup formasında 4 nəfərdən ibarət qruplar eyni işi icra edir. Məşğələnin fərdi formada təşkilində hər bir şagird fərdi tapşırığı icra edir.

Praktik işlərə başlamazdan əvvəl müəllim şagirdləri kimya laboratoriyasinda təhlükəsiz işləməyin qaydaları ilə tanış edir. Birinci praktik işin aparılmasında müəllim işə dair hesabat hazırlamağın və nəticə çıxarmağın təxmini formasını şagirdlərə öyrədir.

Eksperimental məsələlərin həllinə hazırlıq mərhələlərlə aparılır. Əvvəlcə məsələ nəzəri olaraq bütün siniflə həll edilir. Bu məqsədlə məsələnin şərti analiz olunur, cavablandırılacaq suallar formalaşdırılır, təcrübələr təklif olunur. Sonra şagirdlərdən biri məsələni lövhədə nəzəri həll edir, eksperiment vasitəsilə özünün təklifini təsdiq edir. Bundan sonra sinif şagirləri yerlərində oxşar məsələləri həll edirlər. Təcrübəli müəllimlər eksperimental məsələləri tədris prosesinə tədricən

daxil edirlər.

Praktik məşğələ dərsin mürəkkəb növüdür. Müəllim bütün sinifi müşahidə etməli və lazım gəldikdə məsləhət verməlidir. Dərsdə şagirdlərin praktik işləri düzgün və tez icra etmələri onların yaxşı hazırlıqlı olmalarından və məşğələnin təşkilindən asılı olur. Bunun üçün müəllim şagirdlərə ev tapşırığı formasında aparılacaq praktik işlərə dair nəzəri materialı dərslikdən təkrar etməyi, praktik işlərin məzmunu ilə tanış olmağı, işin aparılmasında hansı bacarıq və vərdişlərin zəruri olduğunu öyrənməyi tapşırır. Praktik məşğələdə şagirdlər bir qayda olaraq müəllimin müvafiq mövzunun tədrisində nümayiş etdirdiyi təcrübəni təkrar edirlər. Nümayiş təcrübələrini şagirdlər aralıdan müşahidə etdikləri üçün onların gedişini tam təsvir etməkdə çətinlik çəkirlər. Şagirdlər nəzəri hazırlığa malik olduqdan sonra təcrübələri müstəqil təkrar etməyi və onların mahiyyətini izah etməyi bacarırlar. Şagirdlərdə bilik, eksperimental bacarıq və vərdişlər inkişaf etdikcə praktik məşğələlərdə təcrübələrin aparılmasında onlara daha çox sərbəstlik verilir.

Məqalədə orta ümumtəhsil məktəblərinin 7-11-ci siniflərinin kimya proqpamları və dərsliklərində verilən praktik məşğələlərin təşkili və aparılmasına dair metodik işləmə verilir.

Şagirdlərin praktik işi aparmaları üçün birinci növbədə laboratoriyada işləməyin ümumi qaydalarına əməl etmələri zəruridir:

* sınaq şüşələri, ölçü qabları, ştativlər, spirt lampası və ya qaz plitəsi ilə davranmaq;
* bərk maddələri həll etmək, qızdırmaq, süzmək;
* turşular və qələvilərin məhlulları ilə davranmaq;
* tələb olunan faizli və molyar qatılıqlı məhlulları hazırlamaq;
* hazır hissələrdən qazları almaq üçün cihazları quraşdırmaq, qazları, havanı və suyu sıxışdırıb
çıxarmaqla qablara doldurmaq;
* oksigen, hidrogen, karbon qazı, turşu və qələvi məhlullarını təyin etmək
* təhlükəsizlik texnikası qaydalarına əməl etmək

İşə başlamazdan əvvəl müəllim şagirdlərin aparacaqları praktik işə dair nəzəri və praktik biliklərini yoxlayır. Təcrübələrin əsas mərhələlərini və şagirdlərin cədvəl formasında hazırlayacaqları hesabatın hazırlanmasına dair əlavə məsləhətlər verir.

Şagird dəftərində praktik işin yazılmasına aşağıdakılar daxildir:

* ayın tarixi;
* praktik işin sıra nömrəsi;
* işin adı;
* işin məqsədi;

* təchizat;
* işin icrasına dair hesabat cədvəl formasında hazırlanır

Burada 7-11-ci siniflərin kimya proqramlarında planlaşdırılan praktik işlərdən bəzilərinin müəllimin təlimatı əsasında aparılması və işlərə dair şagirdlərin cədvəl formasında hazırlayacaqları hesabatların nümunələri verilir.

7-ci sinfin kimya proqramına praktik məşğələlərin aşağıdakı mövzuları daxil edilmişdir:

1. Kimya laboratoriyasında iş zamanı təhlükəsizlik texnikası qaydaları. Kimya laboratoriyası avadanlıqları. Laboratoriya ştativinin quraşdırılması. Alovun quruluşunun öyrənilməsi. Xörək duzunun təmizlənməsi.
2. Oksigenin alınması.
3. Tələb olunan qatılıqda məhlul hazırlanması.

**Praktik iş. Oksigenin alınması.**
**Məqsəd:**

**Şagird bilməli və bacarmalıdır:**
* laboratoriyada təhlükəsizlik texnikası qaydalarına əməl etmək;
* oksigenin atom və molekulunun quruluşunu izah etmək;
* laboratoriyada oksigenin alınması üsullarını;
* sadə cihazı quraşdırmaq və onunla işləməyi;
* havanı və ya suyu qovub çıxarmaqla oksigeni qaba toplamağı;
* oksigeni təyin etməyi;
* oksigenin fiziki və kimyəvi xassələrini;
* praktik işin hesabatını cədvəl formasında hazırlamağı.

**Təchizat:** kalium-permanqanat ($KMnO_4$ ), sınaq şüşələri, ştativ, qazaparan boru, rezin tıxac, ağac çöpü, spirt lampası.

**Praktik işin təlimatı:**
1. Sınaq şüşəsinə 1,5 q. kalium-permanqanat tökün.
2. Sınaq şüşəsinin çıxacağını qazaparan boru keçirilmiş tıxacla bağlayın.
3. Sınaq şüşəsini ştativə bərkidın.
4. Qazaparan borunun ucunu boş sınaq şüşəsinin dibinə salın.
5. Kalium-permanqanat olan sınaq şüşəsini spirt lampasının alovunda qızdırın.
6. Oksigeni sınaq şüşəsinə toplayın və qızdırmanı dayandırın.
7. Oksigenin varlığını közərmiş çöplə yoxlayın.
8. Müşahidələriniz əsasında işin hesabatını cədvəl formasında hazırlayın.

Cədvəl 1. Oksigenin alınmasına dair şagirdin hesabatı.

| Nə etdim? | Nə müşahidə olundu? | Reaksiya tənliyi və nəticə |
|---|---|---|
| 1.Sınaq şüşəsinə kaliumperman-qanat kristalları töküb, qazaparan boru keçirilmiş tıxacla bağladım. Sınaq şüşəsini ştativə bərkidib spirt lampası alovunda qızdırdım. | $KMnO_4$ oksigen ay-rılmaqla parçalanır. Qara rəngli $MnO_2$ əmələ gəlir. | $2KMnO_4 \xrightarrow{t} K_2MnO_4+MnO_2+O_2$ Parçalanma reaksiyasıdır, endoter-mikdir,oksidləşmə-reduksiya reaksiyasıdır. |
| 2.. Oksigen alınan sınaq şüşəsin-dən çıxan qazaparan borunun ucu-nu quru sınaq şüşəsinin dibinə saldım. | Oksigen qazı ayrılır. Oksigen havanı çıxa-raraq sınaq şüşəsinə toplanır. | Oksigen havadan ağır olduğu üçün havanı çıxararaq sınaq şüşəsinə toplanır. |
| 3.Ayrılan qazın oksigen olduğu-nu közərmiş çöplə yoxladım. | Oksigen rəngsiz, iy-siz,havadan ağır qaz-dır. Közərmiş çöpü alışdırır. | $C + O_2 \rightarrow CO_2$ Közərmiş çöpü sınaq şüşəsinə sal-dıqda alışır. Oksigen yamaya kö-mək edir. |

8-ci sinfin kimya proqramına daxil edilmiş praktik məşğələlərin mövzuları aşağıdakılardır:
1. «Qeyri-üzvi birləşmələrin mühüm sinifləri arasında genetik əlaqə» mövzusunda eksperimental məsələlərin həlli.
2. Kimyəvi reaksiyaların sürətinə müxtəlif amillərin təsirinin öyrənilməsi.
3. «Elektrolitik dissosiasiya mövzusunda» eksperimental məsələlərin həlli.

**Praktik iş. Kimyəvi reaksiyaların sürətinə müxtəlif amillərin təsirinin öyrənilməsi.**
**Məqsəd:**
**Şagird bilməli və bacarmalıdır:**
* laboratoriyada təhlükəsizlik texnikası qaydalarına əməl etmək;
* kimyəvi reaksiyaların sürətinə dair nəzəri materialı;
* reaksiyanın sürətinə təsir edən amilləri xarakterizə etmək;
* reaksiyanın sürətinin maddələrin təbiətindən,qatılığından və toxunma səthindən asılılığını müqayisə etməklə nəticə çıxarmağı;
* temperatur və katalizatorun reaksiyanın sürətinə təsirini izah etməyi;
* reaksiyanın sürətinə dair təcrübələri müstəqil aparmağı;
* praktik işin hesabatını cədvəl formasında hazırlamağı.

**Təchizat:** xlorid və sulfat turşularının məhlulları, maqnezium lenti, sink parçası, dəmir mıx, dəmir tozu, mis(II) oksid, manqan (IV) oksid, hidrogen-peroksidin 5% li məhlulu, sınaq şüşələri, spirt lampası, süzgəc kağızı, şüşə çubuq.

**Praktik işin təlimatı:**

1. Sınaq şüşəsinə xlorid turşusu tökün və içərisinə maqnezium metalı salın. Həmin təcrübəni sink və dəmirlə də aparın. Reaksiyalardan hansı daha sürətlə gedir? Cavabınızı metalların aktivliklərini müqayisə etməklə əsaslandırın.
2. İki sınaq şüşəsinin hər birinə sink salıb birinə 1:5 , digərinə 1:10 qatılıqda sulfat turşusu əlavə edin. Reaksiyalardan hansı daha sürətlə gedir?
3. İki sınaq şüşəsinin birinə dəmir tozu, digərinə dəmir mıx salın. Sınaq şüşəsinin hər birinə 2 ml duru xlorid turşusu tökün. Reaksiyalardan hansı daha sürətlə gedir?
4.İki sınaq şüşəsinin hər birinə mis(II) oksid töküb, üzərinə sulfat turşusu əlavə edin.Sınaq şüşə-lərindən birini spirt lampasının alovunda qızdırın. Reaksiyalardan hansı daha sürətlə gedir?
5.İki sınaq şüşəsinin hər birinə hidrogen-peroksid töküb, onlardan birinə manqan(IV) oksid kristalı salın. Reksiyalardan hansı daha sürətlə gedir?
6. Müşahidələriniz əsasında işin hesabatını cədvəl formasında hazırlayın.

Cədvəl 2. Kimyəvi reaksiyaların sürətinə müxtəlif amillərin təsirinin öyrənilməsinə dair şagirdin hesabatı

| Nə etdim? | Nə müşahidə olundu? | Reaksiya tənliyi və nəticə |
|---|---|---|
| 1. Üç sınaq şüşəsinin hər birinə xlorid turşusu tökdüm. Birinci sınaq şüşəsinə maqnezium, ikinciyə sink, üçüncüyə dəmir saldım. | Maqnezium olan sınaq şüşəsində qazın ayrılması daha sürətlə gedir. | $Mg + 2HCl \rightarrow MgCl_2 + H_2\uparrow$<br>$Zn + 2HCl \rightarrow ZnCl_2 + H_2\uparrow$<br>$Fe + 2HCl \rightarrow \rightarrow FeCl_2 + H_2\uparrow$<br>Reaksiyanın sürəti qarşılıqlı təsir-də olan maddələrin təbiətindən asılıdır. Mg daha güclü redüksiya-edicidir. |
| 2. İki sınaq şüşəsinin hər birinə sink salıb birinə 1:5, digərinə 1:10 qatılıqda sul-fat turşusu əlavə etdim. | Birinci sınaq şüşəsində qazın ayrılması daha sürətlə gedir. | $Zn + H_2SO_4 \rightarrow Zn\ SO_4 + H_2\uparrow$<br>Qarşılıqlı təsirdə olan maddələrin qatılıqları ardıqca hissəciklərin toqquşmaları çoxalır, reaksiya sürətlə gedir |
| 3. İki sınaq şüşəsinin birinə dəmir tozu, digərinə dəmir mıx saldım. Sınaq şüşəsinin hər birinə 2 ml duru xlorid turşusu tökdüm. | Dəmir tozu olan sınaq şüşəsində qazın ayrılması daha sürətlə gedir. | $Fe + 2HCl \rightarrow FeCl_2 + H_2\uparrow$<br>Qarşılıqlı təsirdə olan maddələrin toxunma səthi böyük olduqda reaksiya sürətlə gedir. |
| 4. İki sınaq şüşəsinin hər birinə CuO töküb,üzərinə sulfat turşusu əlavə etdim. Sınaq şüşələrindən birini qızdırdım. | Qızdırıldıqda mis(II) oksidin həll olması və mavi rəngin əmələ gəlməsi daha sürətlə gedir. | $CuO + H_2SO_4 \rightarrow CuSO_4 + H_2O$<br>Temperatur artdıqca hissəciklərin hərəkət sürəti artır və reaksiyanın sürəti yüksəlir. |
| 5.İki sınaq şüşəsinin hər birinə hidrogen-peroksid töküb, onlardan birinə manqan(IV) oksid kristalı saldım. | $MnO_2$ olan sınaq şüşəsində qazın ayrılması daha sürətlə gedir. | $2H_2O_2 \xrightarrow{MnO2} O_2\uparrow + 2H_2O$<br>$MnO_2$ katalizator kimi iştirak edir. Hidrogen-peroksidin parçalanma reaksiyasını sürətləndirir. |

9-cu sinfin kimya proqramına praktik məşğələlin aşağıdakı mövzuları daxil edilmişdir:
1. Metalların və onların birləşmələrinin xassələri.
2. Qeyri-metalların və onların birləşmələrinin xassələri. Ammonyakın alınması və xassələrinə aid təcrübələr.
3. Üzvi birləşmələrin xassələri

**Praktik iş. Ammonyakın alınması və xassələrinə aid təcrübələr.**
**Məqsəd:**
**Şagird bilməli və bacarmalıdır:**
* laboratoriyada təhlükəsizlik texnikası qaydalarına əməl etmək;
* ammonyakın tərkibi və xassələrini;
* ammonyakın laboratoriyada alınması üsullarını;
* ammonyakın qaba toplanması və suda həll olmasına aid təcrübələri aparmağı;
* ammonyakın turşularla reaksiyalarını izah etmək;
* ammonium duzlarının xassələrini və turşularla reaksiyalarının tənliklərini yazmağı;
* praktik işin hesabatını cədvəl formasında hazırlamağı.

**Təchizat:** ammonium-xlorid, kalsium-hidroksid, xlorid turşusu,sulfat turşusu, çini həvəng, sınaq şüşələri, qazaparan boru, rezin tıxac, ştativ, spirt lampası, fenolftaleinin spirtdə məhlulu.
**Praktik işin təlimatı:**
**1.** Çini həvəngə 3q. ammonium-xlorid və 6 q. kalsium- hidroksid töküb qarışdırın.
2. Qarışığı sınaq şüşəsinə tökün və qazaparan boru keçirilmiş tıxacla bağlayın.
3. Sınaq şüşəsinin dibi tıxaçdan yuxarıda olmaqla əyilmiş formada ştativə bərkidin.
4. Qazaparan borunun ucunu ağzı aşağı vəziyyətdə ştativə bərkidilmiş quru sınaq şüşəsinə daxil edin və qarışığı spirt lampasının alovunda tədricən qızdırın.
5. Sınaq şüşəsinin ağzını pambıqla bağlayın. Ammonyakın iyi hiss olunduqda ştativdən açın.
6. Ammonyakla dolu sınaq şüşəsini ağzı aşağı vəziyyətdə içərisində su olan kristallizatora salın. 7.Su ilə dolmuş sınaq şüşəsinin ağzını barmağınızla qapayaraq götürün və içərisinə 2 damcı fe-nolftaleinin spirtdə məhlulunu əlavə edin.
8.Qazaparan borunun ucunu növbə ilə xlorid və sulfat turşusu olan sınaq şüşələrinə salın.
9. Sınaq şüşəsinə az miqdarda ammonium-sulfat kristalı töküb üzərinə 3ml natrium-hidroksid məhlulu əlavə edib qızdırın. Sınaq şüşəsinin çıxacağına lakmusla isladılmış süzgəc kağızı salın.
10. Müşahidələriniz əsasında işin hesabatını cədvəl formasında hazırlayın.

Cədvəl 3. Ammonyakın alınması və xassələrinə aid təcrübələrin aparılmasına dair şagirdin hesabatı.

| Nə etdim? | Nə müşahidə olundu? | Reaksiya tənliyi və nəticə |
|---|---|---|
| 1.Çini həvəngə 3 q. ammonium-xlorid və 6 q. kalsium-hidroksidi qarışdırıb sınaq şüşəsinə tökdüm. Qazaparan boru keçirilmiş tıxacla bağlayıb, əyilmiş vəziyyətdə ştativə bərkitdim və spirt lampasının alovunda qızdırdım. | Su buxarı sınaq şüşəsinin tıxac olan hissəsində kondensləşir. | $Ca(OH)_2 + 2NH_4Cl \xrightarrow{t} 2NH_3 + CaCl_2 +$ $+ 2H_2O$ Sınaq şüşəsinin çıxacağı aşağı əyilmiş formada olduqda su damlalarının sınaq şüşəsinin qızmış hissəsinə düşməsinin qarşısı alınır. Əks halda şüşə sına bilər. |
| 2.Qazaparan borunun ucunu çıxacağı aşağı vəziyyətdə ştativə bərkidilmiş quru sınaq şüşəsinə saldım. Ammonyakın iyi hiss olunduqda sınaq şüşəsini içərisində su olan kristallizatora saldım. Sınaq şüşəsinə fenolftalein əlavə etdim. | Su kristallizatordan sürətlə sınaq şüşəsinə sorularaq ammonyakı həll edir. Məhlul moruğu rəngə boyanır. | $NH_3 + H_2O \rightarrow NH_4OH$ Ammonyak havadan 2 dəfə yüngüldür. Ona görə də sınaq şüşəsi çıxacağı aşağı vəziyyətdə ştativə bağlanaraq ammonyakla doldurulur. Ammonyak suda yaxşı həll olduğu üçün sınaq şüşəsində vakuum yaranır. |
| 3.Qazaparan borunun ucu növbə ilə içərisində xlorid və sulfat tur-şusu olan sınaq şüşələrinə salınır | Turşu məhlullarının üzərində «ağ duman» əmələ gəlir. | $NH_3 + HCl \rightarrow NH_4Cl$ $2NH_3 + H_2SO_4 \rightarrow (NH_4)_2SO_4$ Ammonyak turşularla reaksiyaya aktiv daxil olur. Nəticədə «ağ duman» halında $NH_4Cl$ və $(NH_4)_2SO_4$ kristal maddələr əmələ gəlir. |
| Sınaq şüşəsinə az miqdarda ammonium-sulfat töküb üzərinə 3 ml natrium-hidroksid məhlulu əlavə etdim və qızdırdım. Sınaq şüşəsinin çıxacağına lakmusla isladıl-mış süzgəc kağızı qoydum. | Kəskin iyli qaz əmələ gəlir. Süzgəc kağızı göy rəngə boyanır. | $(NH_4)_2SO_4 + 2NaOH \rightarrow Na_2SO_4 +$ $+ 2NH_3 + 2H_2O$ $NH_3 + H_2O \rightarrow NH_4OH$ Ammonium duzlarının keyfiyyət reaksiyası onların qələvilərlə birlikdə qızdırılmasıdır. Mühit qələvidir. |

10-cu sinifin mövcud proqramında aşağıdakı mövzular üzrə praktik məşğələlərin aparılması nəzərdə tutulmuşdur:

1. Karbon(IV) oksidin alınması və xassələrinin öyrənilməsi.
2. Üzvi birləşmələrdə karbon, hidrogen və xlorun təyini.
3. Etilenin alınması və onunla təcrübələr.

**Praktik iş. Üzvi birləşmələrdə karbon, hidrogen və xlorun təyini.**

**Məqsəd:**

**Şagird bilməli və bacarmalıdır:**

* laboratoriyada təhlükəsizlik texnikası qaydalarına əməl etmək;
* karbohidrogenlərin tərkibi və xassələrini;
* karbohidrogenlərin xlorlu törəmələrinin quruluşu və xassələrini;
* karbohidrogenin tərkibində karbonun olmasını təcrübədə təsdiq edən əlaməti;
* karbohidrogenin tərkibində hidrogenin olmasını təcrübədə təsdiq edən əlaməti;

* üzvi birləşmənin tərkibində xlorun olmasını təcrübədə təsdiq edən əlaməti;
* kimyəvi maddələr və qablardan təcrübələrin aparılmasında istifadə etmək;
* Təcrübələrdə istifadə olunan cihazları quraşdırmağı;
* praktik işin hesabatını cədvəl formasında hazırlamağı.

**Təchizat:** mis(II) oksid, mis(II) sulfat, vazelin, kalsium-hidroksid, mis məftil, xloroform, ştativ, sınaq şüşələri, qazaparan boru, rezin tıxaclar, spirt lampası, fenolftaleinin spirtdə məhlulu.

**Praktik işin təlimatı:**

1. Quru sınaq şüşəsinə 1q. CuO tozu və 0,2 q. vazelin töküb, üfiqi vəziyyətdə ştativə bərkidin.
2.Sınaq şüşəsinin çıxacağına bir qədər susuz mis(II) sulfat qoyun və qazaparan boru keçirilmiş tıxacla bağlayın.
3. Qazaparan borunun ucunu içəricində $Ca(OH)_2$ olan sınaq şüşəsinə salın və CuO və vazelin olan sınaq şüşəsini spirt lampası alovunda qızdırın.
4. Mis məftili spiral formasına salıb spirt lampasının alovunda qızdırın.Sonra onu içərisində xloroform olan sınaq şüşəsinə salıb yenidən qızdırın.
5. Müşahidələriniz əsasında işin hesabatını cədvəl formasında hazırlayın.

Cədvəl 4. Üzvi birləşmələrdə karbon, hidrogen və xlorun təyininə dair şagirdin hesabatı

| Nə etdim? | Nə müşahidə olundu? | Reaksiya tənliyi və nəticə |
|---|---|---|
| 1.Quru sınaq şüşəsinə 1q. CuO tozu və 0,2 q. vazelin töküb, üfiqi vəziyyətdə ştativə bərkidirəm. Sınaq şüşəsinin çıxacağına bir gədər susuz $CuSO_4$ qoyub, qazaparan boru keçirilmiş tıxacla bağlayıram. Qazaparan borunun ucunu içərisində $Ca(OH)_2$ olan stəkana salıram. Sonra qarışıq olan sınaq şüşəsini qızdırıram. | Rəngsiz $CuSO_4$ mavi rəngə boyanır, $Ca(OH)_2$ məhlulu bulanır, sınaq şüşəsinin dibində sərbəst mis əmələ gəlir. | $C_nH_{2n+2}+(3n+1)CuO \xrightarrow{t} nCO_2 + (n+1)H_2O +$ $+ (3n+1)Cu$ <br> $C_{20}H_{42} + 61CuO \xrightarrow{t} 20CO_2 + 21H_2O + 61Cu$ <br> $CuSO_4 + 5H_2O \rightarrow CuSO_4 \cdot 5H_2O$ <br> $Ca(OH)_2 + CO_2 \rightarrow CaCO_3 \downarrow + H_2O$ <br> Susuz mis-2 sulfat suyu birləşdirərək kristalhidrat əmələ gətirir. Suyun əmələ gəlməsi karbohidrogenin tərkibində hidrogenin olduğunu təsdiq edir. <br> $Ca(OH)_2$ məhlulunun bulanması karbon qazının əmələ gəldiyini və karbohidrogenin tərkibində karbonun olduğunu təsdiq edir. <br> Mis(II) oksid karbohidrogeni oksidləşdirir özü isə sərbəst misə reduksiya olunur. |
| 2. Mis məftili spiral formasına salıb spirt lampasının alovunda qızdırıram.Sonra onu içərisində xloroform olan qaba salıb yenidən qızdırıram. | Alov yaşıl rəngə boyanır. | $2Cu + O_2 \xrightarrow{t} 2CuO$ <br> $2CHCl_3 + 5CuO \xrightarrow{t} 3CuCl_2 + 2CO_2 + H_2O +$ $+ 2Cu$ <br> Reaksiyada mis (II) xloridin əmələ gəlməsi üzvi birləşmənin tərkibində xlor olduğunu təsdiq edir. |

11-sinifin mövcud proqramında aşağıdakı mövzular üzrə praktik məşğələlərin aparılması
nəzərdə tutulmuşdur:
1. Spirtdən brometanın alınması.
2. Karbon turşularının alınması və xassələri.
3. Üzvi maddələrin alınması və tanınmasına dair eksperimental məsələlərin həlli.
4. Liflərin ayırd edilməsi.

**Praktik iş. Karbon turşularının alınması və xassələri.**

**Məqsəd:**
**Şagird bilməli və bacarmalıdır:**
* laboratoriyada təhlükəsizlik texnikası qaydalarına əməl etmək;
* karbon türşularının quruluşunu izah etmək;
* karbon turşularını laboratoriyada almağı;
* üzvi turşuların qeyri-üzvi türşularla müqayisə edib nəticə çıxarmağı;
* karbon turşularının fiziki və kimyəvi xassələrini;

**Təchizat:** natrium-asetat, qatı sulfat turşusu, natrium-hidroksid, natrium-karbonat, maqnezium, sink, ştativ, sınaq şüşələri, qazaparan boru, rezin tıxaclar, spirt lampası

**Praktik işin təlimatı:**
1. Sınaq şüşəsinə 1q. natrium-asetat və 3 ml qatı sulfat turşusu tökün.
2. Sınaq şüşəsinnı çıxacağını qazaparan boru keçirilmiş tıxacla bağlayın.
3. Sınaq şüşəsini üfiqi vəziyyətdə ştativə bərkidin.
4. Qazaparan borunun ucunu quru sınaq şüşəsinə salın
5.Qarışığı spirt lampasının alovunda qızdırın.
5. Sınaq şüşəsinə natrium-hidroksid və 2 damcı fenolftalein tökün. Sonra həmin məhlula tədricən sirkə turşusu əlavə edin.
6. Sınaq şüşəsinə natrium-karbonat məhlulu töküb, üzərinə sirkə turşusu əlavə edin
7. İki sınaq şüşəsinin birinə sink, digərinə maqnezium salın. Sonra onların hər birinə eyni həcmdə sirkə turşusu tökün.
8. Müşahidələriniz əsasında işin hesabatını cədvəl formasında hazırlayın.

Cədvəl 5. Karbon turşularının alınması və xassələrinə dair şagirdin hesabatı

| Nə etdim? | Nə müşahidə olundu? | Reaksiya tənliyi və nəticə |
|---|---|---|
| 1.Sınaq şüşəsinə 1q. natrium-asetat töküb üzərinə 3 ml qatı sulfat turşusu əlavə etdim. Sınaq şüşəsinə qazaparan boru keçiril-miş tıxac taxıb üfiqi vəziyyətdə ştativə bərkitdim. Qaz-aparan borunun ucunu quru sınaq şüşəsinə salıb, qarışığı qızdırdım. | Maye halında sirkə turşusu alındı. | $CH_3COONa + H_2SO_4 \xrightarrow{t} CH_3COOH + Na_2SO_4$ Sulfat turşusu qüvvətli turşu olduğu üçün sirkə turşusunu duzundan çıxarır. |
| 2.Sınaq şüşəsinə natrium-hidroksid töküb üzərinə 2 damcı fenolftalein əlavə etdim. Sonra həmin məhlula tədricən sirkə turşusu tökdüm. | Məhlul əvvəlcə moruğu rəng alır, sonra rəngsizləşir. | $CH_3COOH + NaOH \rightarrow CH_3COONa + H_2O$ Turşu ilə əsas arasında neytallaşma re-aksiyası gedir. Fenolftalein qələvi mü-hitdə moruğu, neytral və turş mühitdə rəngsiz olur. |
| Sınaq şüşəsinə natrium-karbonat məhlulu töküb, üzərinə sirkə turşusu əlavə etdim. | Qaz ayrılır | $Na_2CO_3 + CH_3COOH \rightarrow 2CH_3COONa + CO_2\uparrow + H_2O$ Sirkə turşusu, zəif qeyri-üzvi turşuların duzları ilə qarşılıqlı təsirdə olur. |
| İki sınaq şüşəsinin birinə sink, digərinə maqnezium saldım. Hər iki sınaq şüşəsinə eyni həcmdə sirkə turşusu əlavə etdim. | Maqnezium me-talı olan sınaq şüşəsində qazın ayrılması daha sürətlə gedir. | $Mg + 2CH_3COOH \rightarrow Mg(CH_3COO)_2 + H_2\uparrow$ $Zn + 2CH_3COOH \rightarrow Zn(CH_3COO)_2 + H_2\uparrow$ Maqnezium daha güclü reduksiya edi-ci metaldır. |

## İstifadə edilmiş ədəbiyyat:


1. M.M.Abbasov, V.M.Abbasov, N.Ə.Abı-şov, V.S.Əliyev. Kimya. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı, 2014.
2. M.M.Abbasov, A.H.Əliyev. Kimya 7-ci sinif. Müəllim üçün metodik vəsait. Bakı, 2014.
3. R.Ə.Əliyeva, V.M.Abbasov, A.M.Mə-hərrəmov, M.M.Abbasov, S.R.Hacıyeva və. b. Kimya. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik. Bakı,2015.
4. M.M.Abbasov, A.H.Əliyev. Kimya 8-ci sinif. Müəllim üçün metodik vəsait. Bakı, 2015.
5. Ş.Mustafa, İ.Lətifov. Kimya. Ümumtəhsil məktəblərinin 9-ci sinfi üçün dərslik. Bakı, 2016.
6. Ş.Mustafa, İ.Lətifov. Kimya 9-cu sinif. Müəllim üçün metodik vəsait. Bakı,2016.
7. V.M.Abbasov, A.M.Məhərrəmov, M.M.Abbasov və b. Kimya.Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik. Bakı,2005.
8. V.M.Abbasov, A.M.Məhərrəmov, M.M.Abbasov və b. Kimya.Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün dərslik. Bakı,2007.
9. Э.Г.Золотников. Химический эксперимент в условиях развивающего обучения. Химия в школе, 2001,№ 1.

*А.Д.Кулиев, Т.А.Велиева*

**Формирование у учащихся химических знаний в процессе проведения практических работ по химии в средней школе**

**РЕЗЮМЕ**

В статье, на основании анализа действующих программ и учебников по химии 7-11 классов средней школы, рассмотрена методика организации и проведения практических работ. По конкретным темам дается методика практических работ, проводимые как по инструкции, так и в виде экспериментальных задач. Разработаны методические рекомендации по организации и проведения практических работ в курсах химии 7-11 классов, основываясь на реализации поэтапного формирования теоретических знаний. Это позволяет более эффективному развитию практических умений и навыков у учащихся. Установлено, что наряду с формированием умений и навыков в процессе практических занятий, углубляются и теоретические знания.

*A.D.Guliyev, T.A.Veliyeva*

**Formation at pupils of chemical knowledge in the process of practical work on chemistry in secondary school**

**SUMMARY**

Based on an analysis of existing programs and textbooks on chemistry, 7-11 classes of secondary school, the methods of organization and conducting the practical work were reviewed in the article. Method of practical work carried out both on instruction and in the form of experimental tasks was given on specific topics. Methodical recommendations were worked out on the organization and carrying out practical work in chemistry courses of grades 7-11, based on the implementation of the gradual formation of theoretical knowledge. This allows more efficient development of practical skills and abilities in students. It is determined that the theoretical knowledge is deepened along with the formation of abilities and skills in the process of practical training.

**Açar sözlər:** praktik işlər, planlaşdırılması, təşkili, aparılması, eksperimental məsələlər

**Ключевые слова:** практические работы, планирование, организация, проведение, экспериментальные задачи

**Key words:** practical works, planning, organization, conducting, experimental tasks.